

ELDAR BAXIŞ
(1947–1996)

# Məhəmməd Hadiyə

1. Qərib nar əkər, nar əkər,
Narı nar olmaz, nar olmaz.
Qərib deyər: qərib qızdan
Mənə yar olmaz, yar olmaz:

Sünbülü qıçada qalar,
Buğdası puçada qalar,
Alması taxçada qalar,
qalar, saralmaz, saralmaz.

Kim qəribə arxa çıxar,
Qərib birdən yoxa çıxar,
Dərd əlindən dağa çıxar,
dağda qar olmaz, qar olmaz

2. Tək dedilər – təklədilər,
qanına yeriklədil ər.
Sonra da dərdini alıb
dağa-daşa yüklədilər,
çəkə bilmədi, bilmədi
Əsiməsimcə əsdilər,
öldürməyə təsdilər.
Günün günorta çağında
ağacı elə kəsdilər,
kölgə bilmədi, bilmədi.
Xallandı gül – butasında,
nər qarnında-qartasında.
Bir şairi öldürdülər
bir ölkənin ortasında,
ölkə bilmədi, bilmədi.